Ədəbiyyat QƏZETİ

# "Görkəmli şəxsiyyətlərin həyatı - Heydər Əliyev" kitabı İspaniyada nəşr olundu




Madridin zəngin ənənəli "Mandala Ediciones" nəşriyyatı müasir Azərbaycanın qurucusu, dünya şöhrətli siyasi xadim Heydər Əliyevin 100 illiyi münasibətilə Dövlət Tərcümə Mərkəzinin ispan dilində ərsəyə gətirdiyi "Görkəmli şəxsiyyətlərin həyatı - Heydər Əliyev" kitabını nəşr edib.

"Mən Naxçıvanda doğulmuşam...", "Bura da bir cəbhədir", "Heydər və Zərifə", "Bu peşəni yeniyetmə vaxtlarından seçmişəm", "Respublikanın rəhbəri", "Sən bütün İttifaqa lazımsan", "Mən insanam, daşdan, dəmirdən deyiləm", "Xalqıyla birlikdə olmaq haqqı", "Doxsan üçüncü", "Dünya siyasətində Azərbaycan nefti", "Günəş dənizdən doğur", "Prezident ili", "Dünyanın gözündə" adlı on üç fəsil üzrə tərtib edilmiş kitabın ispan dilinə tərcümə müəllifləri - tanınmış Salvador dilçi-alimi, professor Sesar Edqardo Martines Flores və ispan dili mütəxəssisi Nərmin Hüseynlidir.